ARTİ/MART/2023

ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# Beynəlxalq Təhsil İcmalı



## İçindəkilər

02. Təhsildə ədalət və inklüzivlik. Müxtəliflik vasitəsilə güc tapmaq
03. Sağlam məktəb, sağlam qidalanma-öyrənmə və inkişafa dəstək
04. Xatırlatma mətn mesajlarının oxu bacarığına təsiri
05. Ali təhsil üzrə Beynəlxalq Konvensiya: Dünyada tələbələr üçün yeni dövr başlayır

Beynəlxalq Təhsil İcmalı
Mart 2023

# Təhsildə ədalət və inklüzivlik. Müxtəliflik vasitəsilə güc tapmaq

Bu gün dünyadakı demoqrafik dəyişikliklər, miqrasiya, artan bərabərsizlik, iqlim dəyişikliyi kimi bir sıra böyük qlobal hadisələrlə əlaqədar təhsildə ədalət və inklüzivlik problemlərin meydana çıxmasına, müxtəlifliyin artmasına səbəb olmuşdur. Bu da dəyişikliklərin təhsildə ədalət və inklüzivliyə təsirinin öyrənilməsini vacib hesab etmişdir.
Bu əsasda "Müxtəliflik vasitəsilə güc" layihəsinin cari hesabatı təhsil sistemlərinin artan müxtəlifliyə münasibətini, təhsildə ədalət və inklüzivliyin necə təmin olunacağı məsələlərini əhatə edir. Hesabat beş əsas siyasət sahəsini (yəni, idarəetmə; resurslarla təmin etmə; potensialın yaradılması; məktəb səviyyəsində təşviq, monitorinq və qiymətləndirmə) araşdırır, siyasət və təcrübələrin nümunələrini təqdim edir. Həmçinin, daha ədalətli və inklüziv təhsil sistemlərinin təşviqi ilə bağlı siyasi məsləhətlər təklif edir. Bu istiqamətdə nümunələr, təcrübələr  qeyd olunaraq, ədalətli və inklüziv təhsil sistemlərinin təşviqi ilə bağlı tövsiyələr verilir.

**1)Ədalətlilik və inklüzivliyi təşviq etmək üçün təhsil sistemlərinin idarə edilməsi**

Ədalətli və inklüziv təhsil sisteminin inkişafı hərtərəfli yanaşma tələb edir. Bu yanaşma təhsil sistemlərinin ədalətlilik və inklüzivliyin əsas sahələrini əlaqələndirən siyasi çərçivələrlə eyniləşdirilməsinin əhəmiyyətini nəzərdə tutur. Bu çərçivəyə tədris planlarının hazırlanması, tədris metodları konsepsiyası, müəllim heyətinin potensialının artırılması, məlumatların toplanması və şagird-tələbə nəticələrinin monitorinqinin hazırlanması daxil ola bilər. Yeni təhsil siyasət çərçivəsi həmçinin, şagirdlərin nailiyyətləri ilə birlikdə rifahının artırılmasının vacibliyini və inklüziv mühitin inkişafında məktəblərin rolunu göstərir. Bu dövr ərzində ədalətli və inklüziv təhsil sahəsində müvafiq maraqlı tərəflərin birmənalı şəkildə işə cəlb edilməsi də əsasdır. Həmçinin, təhsil sistemi tərəfindən qəbul edilmiş məqsədlər, vasitələr və konsepsiyaların aydınlığını təmin etmək üçün onların siyasət çərçivəsinin işlənib hazırlanmasına cəlb edilməsi məqsədəuyğun hesab edilir. Bu, daha sonra dövlət idarəçiliyinin müxtəlif səviyyələrində Çərçivə Proqramının həyata keçirilməsini təmin etmək, dövlət idarəçiliyinin digər sahələri (məsələn, səhiyyə və sosial xidmətlər) və qeyri-dövlət qurumları ilə əməkdaşlığı təmin etmək üçün tərəfdaşlıq münasibətlərinə çevrilir.

**2)Ədalətliliyi və inklüzivliyi təşviq etmək üçün təhsil sistemlərinin resurslarla təmin edilməsi**

Təhsilə verilən ümumi maliyyə aşağıdakı üç kateqoriyanı əhatə edir:
- Maliyyə köçürmələri (məktəblərin dövlət maliyyələşdirilməsi və s.);
- İnsan resursları (müəllimlər, məktəb rəhbərləri və təhsil idarəçiləri);
- Fiziki resurslar (binalar və avadanlıqlar);

Əlavə resurslara ayrılan maliyyənin isə daha çox ehtiyacı olan məktəblərə, təhsilalanlara yönləndirilməsi təhsil sisteminin ədalətliliyi və inklüzivliyi üçün xüsusi əhəmiyyətə malikdir. Bu məqsədlə təhsil sistemləri təhsilalanlara lazımi dəstək vermək üçün həm əsas paylama mexanizmlərindən, həm də məqsədyönlü resurs bölgüsündən istifadə etməlidir. Qeyd olunan iki maliyyələşdirmə mexanizmi bu məqsədlərə müxtəlif yollarla xidmət edə bilmək kimi bir sıra üstünlüklərə malik  olsa da, proqramların təkrarlanması və həddindən artıq bürokratiya kimi risklər daşıyır. Buna görə də, həm əsas, həm də məqsədli vəsaitlərin təhsildə ədalətin və inklüzivliyin təşviqi kimi açıq məqsədlərlə tərtib edilməsini, onların müvafiq problemlərinin nəzərə alınmasını, balanslaşdırılmasını təmin etmək vacibdir.

**3)Bərabərlik və inklüzivliyi təşviq etmək üçün potensialın yaradılması**

Təhsilalanların maariflənməsi, rifahının dəstəklənməsi müəllimlərdən differensiallaşdırılmış təlim haqqında güclü nəzəri bilik və tətbiqetmə bacarıqları tələb edir. Belə ki, adekvat öyrənmə imkanlarına sahib olmayan müəllimlər təhsilalanların müxtəlif ehtiyaclarını qarşılaya bilmirlər. Buna görə ibtidai pedaqoji təhsil və davamlı peşə təhsili çərçivəsində müxtəlifliyi, ədalətliliyi və inklüzivliyi nəzərə almaq vacibdir. Çünki, bu cür təlim, ədalət, inklüzivlik əsasında təcrübələrin effektiv həyata keçirilməsi şagirdin akademik nailiyyətinə müsbət təsir göstərməsi baxımından məktəb rəhbərləri üçün əsasdır.
Eyni zamanda, bərabərlik və inklüzivliyin təşviqinə əhəmiyyətli dərəcədə təsir göstərə bilən məktəb kollektivinin də müxtəlifliyinin təmin olunması mühüm siyasi vasitə kimi qəbul edilir. Bu, həm müxtəlif namizədlərin ibtidai pedaqoji təhsilə cəlb edilməsi strategiyalarını, həm də müxtəlif müəllimləri dəstəkləmək təşəbbüslərini əhatə edən vahid bir yanaşma tələb edir.

**4) Məktəb səviyyəsində fəaliyyətlər vasitəsilə ədalət və inklüzivliyin təşviqi**

Təhsil siyasəti təhsil müəssisələri üçün əhatəli çərçivə yarada bilər, lakin onların məktəb səviyyəsində tətbiqi şagirdlərin siniflərdə gündəlik təcrübələrini müəyyənləşdirən amildir. Məktəblərdə bu siyasət konkret mənbələr, tədris metodları, tədris və dərsdənkənar dəstək mexanizmləri şəklində həyata keçirilir.

**5) Təhsildə ədalət və inklüzivliyin monitorinqi və qiymətləndirilməsi**

Monitorinq və qiymətləndirmə yalnız təhsil sistemində ədalət və inklüzivliyin təminatı üçün siyasət tətbiq edilməsini deyil, həm də onların həyata keçirilməsini, məqsədə çatmasını təmin etməkdə başlıca rol oynaya bilər. Buna görə də, təhsil sistemlərinin ədalət və inklüzivliyini yaxşılaşdıraraq təhsildə irəliləyişə nəzarət etməsi, bu istiqamətdə aparılan siyasətləri, proqramları, prosesləri qiymətləndirməsi vacibdir. Eyni zamanda, qiymətləndirmə prosesi ayrı-ayrı məktəblərə ədalət və inklüzivlik təcrübələrini təkmilləşdirməkdə dəstək ola bilər. Bu səbəblə də, təhsil sistemləri ədalət və inklüzivliyə doğru irəliləyişi qiymətləndirən monitorinq sistemləri yaratmalıdırlar.
Ədalət və inklüzivliyə doğru irəliləyişi ölçmək üçün istifadə olunan alətlər hərtərəfli strategiyaya daxil edilə bilər. Təhsilalanların ehtiyaclarını ən yaxşı şəkildə qarşılayan və baş verən prosesləri müəyyən etmək üçün yerli və məktəb səviyyələrində qiymətləndirmə mərkəzi yaradılmalıdır.

Mənbə: OECD (2023), Equity and Inclusion in Education: Finding Strength through Diversity, OECD Publishing, Paris, https://doi.org/10.1787/e9072e21-en

Belnəlxalq Təhsil İcmalı
Mart 2023

# Sağlam məktəb, sağlam qidalanma-öyrənmə və inkişafa dəstək

Hər bir uşağın keyfiyyətli təhsil, sağlam və adekvat qidalanma hüququ var. Bu əsasda UNESCO, Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Ümumdünya Ərzaq Proqramı (WFP), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Təhsildə Qlobal Tərəfdaşlıq (GPE), Dünya Bankı və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Məktəb Sağlamlığı və Qidalanma Araşdırma Konsorsiumu və BMT-nin Qidalanma Katibliyinin dəstəyi ilə "Öyrənməyə və inkişaf etməyə hazırıq: Bütün dünyada sağlam məktəb və qidalanma" proqramı hazırlanıb.
Hesabat ölkələrin sağlam məktəb və qidalanma (SMQ) proqramlarının nə dərəcədə fəaliyyət göstərdiyinə dair ilk araşdırmanı təqdim edir. Həmçinin sağlam məktəb və sağlam qidalanmanı yaxşılaşdırmaq, əhatə dairəsini genişləndirmək, inkişaf etdirmək üçün səyləri təşviq etmək məqsədi daşıyır.
Toplanmış məlumatlar göstərir ki, məktəblərdə bir sistem olaraq şagirdlərin sağlamlığını və rifahını dəstəkləyə biləcək bir çox çıxış yolları mövcuddur. Buraya məktəb yeməkləri, peyvənd, gigiyena, psixososial dəstək kimi sağlamlıq və qidalanma xidmətlərinin göstərilməsi; təhsilalanlara sağlam həyat sürmək imkanı verən bilik, münasibət və bacarıqları təmin edən sağlam təhsil; sağlamlıq və rifahı təşviq edən təhlükəsiz və inklüziv öyrənmə mühitləri daxildir.

**Sağlam məktəb və qidalanma nədir?**
**Sağlam məktəb və qidalanma** - məktəb yaşındakı uşaqların və yeniyetmələrin fiziki, zehni inkişafını, qidalanmasını, rifahını təmin edən təhsil sistemi daxilində inteqrasiya olunmuş strategiyaların, fəaliyyətlərin və xidmətlərin vasitəsilə daha geniş məktəb cəmiyyəti qurmaq məqsədi daşıyır.
Bu məqsədə aşağıdakılar daxildir:
-Milli, submilli və məktəb səviyyələrində əlverişli şərait yaradan siyasət və qanunlar;
-Təhsildə sağlamlıq və rifah;
-Bacarıqlara əsaslanan məktəb proqramları;
-Məktəbin fiziki və sosial-emosional mühiti;
-Təhlükəsiz, əhatəli, sağlam, rifaha və öyrənməyə üstünlük verən sağlam məktəb və qidalanma xidmətləri, məktəbdə yemək proqramları daxildir.
Sağlam məktəb və qidalanma siyasətləri və proqramları təbiətcə bir sıra sektorları (təhsil, səhiyyə, kənd təsərrüfatı, maliyyə, sosial təminat və digər) və onlar arasında səmərəli əməkdaşlığı tələb edir.

**Sağlam məktəb və qidalanmaya investisiya:**
**Sağlam məktəb və qidalanma** proqramına davamlı investisiya cəlbi təhsil, səhiyyə və gender bərabərliyi, yoxsulluq, aclıq, su problemləri, gigiyena, iqtisadi problemlər, sülh, ədalət kimi Davamlı İnkişaf Məqsədlərinə kömək edir.
Uşaq və yeniyetmələrin təhsilinə mənfi təsir göstərən amillər sırasında son dövrlər onların şiddət, yoluxucu xəstəliklər, qidalanma, reproduktiv, zehni inkişafla bağlı bir çox önlənə bilən və müalicə edilə bilən sağlamlıq problemlərindən əziyyət çəkmələri hesabatda əks olunur. Bu problemlərin aradan qaldırılması istiqamətində **sağlam məktəb və qidalanma** proqramlarının məktəblərdə səmərəli tətbiqi şagirdlərin təhsilə cəlb olunmasında uşaqlara, yeniyetmələrə keyfiyyətli öyrənmə şansı verə bilər. Xüsusilə də qızlar bu cür proqramlardan əhəmiyyətli dərəcədə faydalana bilərlər. Belə ki, məktəblərin sağlam qida təminatı və düzgün səhiyyə xidmətlərinin keyfiyyətinin artması qızların təhsilə cəlb olunmasına müsbət təsir göstərir.
Məktəb mühitində sağlam qidalanma proqramlarının nəzərə alınması məktəbyaşlı uşaqların və yeniyetmələrin qidalanmasına həlledici töhfə verməklə yanaşı təhsil, səhiyyə, kənd təsərrüfatı və sosial müdafiə də daxil olmaqla bir çox sektora gəlir gətirə bilər. Belə ki, bura yatırılan hər 9 dollar üçün 1 dollar gəlir əldə olunur. Narahatlıq (anksiyete), depressiya və intiharla mübarizə aparan məktəb proqramları, bütün ölkələrdə 21,5 ildə yatırılan hər 1 ABŞ Dolları üçün orta hesabla 80 dollar investisiya əldə edə bilər. Bu baxımdan **sağlam məktəb və qidalanma** proqramları daha davamlı, əhatəli və dinc bir gələcəyə yaxşı bir sərmayə hesab olunur.
Səhiyyə və təhsil arasındakı belə qarşılıqlı əlaqə insan kapitalının-əhalinin sağlamlığı, biliyi, bacarığı və təcrübəsinin inkişafına əhəmiyyətli dərəcədə təkan verir.

**Sağlam məktəb və qidalanma proqramının həyata keçirilməsi**
Hərtərəfli, uğurlu və davamlı **sağlam məktəb və qidalanma** proqramları üçün yanaşmalar fərqli olsa da, tətbiqi üçün siyasi çərçivələr mövcuddur. Bu istiqamətdə bəzi ölkələr milli təhsil, səhiyyə və qidalanma siyasətinə geniş çərçivədə inteqrasiya edirlər. Digər ölkələrdə isə **sağlam məktəb və qidalanma** ilə bağlı xüsusi layihələr mövcuddur. Sağlamlığı təşviq edən məktəblər üçün Milli Standartlar 2018-2019 cu illər arasında 96 ölkədən 147 ölkəyə çatmışdır.
Hesabatda bildirilir ki, aşağı gəlirli ölkələrdə daha çox gigiyena və infeksiyanın qarşısının alınması kimi məsələlər, yüksək gəlirli ölkələrdə isə piylənmə (obezlik), emosional rifah, həmyaşıd zorakılığı və narkotik istifadəsi hallarının mövcudluğu qeyd olunur. Statistik təhlildən aydın olur ki, milli siyasətdə ən çox rast gəlinən problemlər 198 ölkə üzrə 91%-də məktəb yeməkləri; 85 ölkə üzrə 80%-də məktəb yeməkləri və 192 ölkənin 74%-də isə tütünsüz təhsil qanunvericiliyi mövcuddur.

Məktəb qidalanması sahəsində çərçivə siyasəti olan ölkələrin sayı əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, ölkələrin 80%-nin məktəb qidalanma siyasətinə malik olması da qeyd olunur. Belə bir sistemə sahib olan aşağı gəlirli ölkələrin payı 2013-2020-ci illər arasında 20%-dən 75%-ə yüksəlmişdir. Buna səbəb, məktəb qidalanma proqramlarının daxili maliyyələşdirilməsinin və məktəblilərin sayının artması hesab olunur. Məktəb yemək proqramlarına tələb olunan maliyyənin 90%-dən çoxu hazırda daxili xərclər hesabına ödənilir. Belə ki, bu proqramdan yararlanan uşaq və yeniyetmələrin sayı 2013-2020-ci illər arasında yüksək gəlirli ölkələrdə 9%, aşağı gəlirli ölkələrdə isə 36% artmışdır.

**Sağlamlıq və rifah üçün təhsil**

YUNESKO-nun 2020–2021-ci illər üzrə keçirdiyi Ümumdünya Bədən Tərbiyəsi Sorğusuna 117 ölkədən əldə olunmuş cavablar göstərir ki, 10 ölkədən 9-da bədən tərbiyəsi icbari kurikulum fənnidir. Bir çox ölkədə qidalanma təhsili sinifdənkənar fəaliyyətlər çərçivəsində aparılır və ya məktəb qidalanma proqramları ilə əlaqələndirilir. Ölkələrin 60%-dən çoxu məktəblərin qidalanma, pəhriz və şəkər qəbulu ilə əlaqəli təhsil verdiyi aydın olmuşdur.

Hesabatdan aydın olur ki, təhsilə mane olan problemlər sırasına ölkələrin tədris proqramlarına effektiv sağlam qidalanmanın, keyfiyyətli təlim resurslarının, potensialın inkişafı və müəllimlərin şagird mərkəzli təcrübi yanaşmalara inamının olmaması daxildir.

**Məktəbin fiziki mühiti**

YUNESKO-nun Statistika İnstitutu tərəfindən məktəblərdə fiziki mühitin təhlili göstərir ki, Sahra altı Afrika istisna olmaqla, bütün bölgələrdəki məktəblərin əksəriyyəti elektrik enerjisinə malikdir. Sahra altı Afrikada, ən azı 19 ölkədə ibtidai məktəblərin üçdə birindən azında elektrik enerjisi  mövcuddur. 71 ölkənin Statistika İnstitutunun məlumatları göstərir ki, sağlamlıq imkanları məhdud olan şagirdlər üçün uyğunlaşdırılmış infrastruktur və materiallara çıxışı olan ibtidai məktəblərin orta payı yalnız 30%-dir. Sağlamlıq imkanları məhdud olan şagirdlər üçün avadanlıq və materiallara əlçatanlıq orta gəlirli ölkələrdə daha yüksəkdir. Buna baxmayaraq bəzi yüksək gəlirli ölkələrdə yalnız bir neçə məktəb əsas standartlara cavab verir. Eyni zamanda, hesabatdan məlum olur ki, dünya ölkələrinin yarısında bədən tərbiyəsi üçün kifayət qədər şərait və avadanlıq yoxdur. Həmçinin 187 ölkənin yalnız yarısında məktəblərdə qida, içki ilə bağlı qanunvericilik, standartlar və təlimatlar mövcuddur.

**Məktəbin sosial emosional mühiti**

Hesabatda bildirilir ki, məktəb zorakılığı bütün ölkələrdə aktualdır. Lakin bu istiqamətdə aparılan hərtərəfli yanaşmalar məktəbdəki şiddət və zorakılıq səviyyələrini azalda bilər. Buna baxmayaraq 150 ölkədən alınan məlumatlar göstərir ki, məktəblərdə zorakılığın qarşısının alınması üçün mövcud proqramlar kifayət deyil. Məsələn, həyat və sosial bacarıq təlimi 39% ölkədə bütün uşaqları əhatə etdiyi halda, zorbalığın qarşısının aradan qaldırılması tədbirlərinin əhatə dairəsi daha aşağı olduğu məlum olmuşdur. Bundan əlavə, 2018-ci ildə Beynəlxalq Şagird Nailiyyətlərinin Qiymətləndirilməsi Proqramı (PISA)-nın nəticələrindən təxminən hər beş şagirddən birinin özlərini məktəbə aid hiss etmədikləri aşkar olunmuşdur.

**Məktəb qidalanma proqramları**

Məktəb qidalanma proqramları ölkələrin sayı baxımından dünyada ən çox yayılmış sosial müdafiə sistemidir. Belə ki, təxminən 388 ölkədə 161 milyon uşaq (ibtidai məktəbdə oxuyan uşaqların təxminən yarısı) məktəb qidalarından istifadə edir ki, bu da ölkədaxili büdcənin 90%-ni təşkil edir. Bununla birlikdə, yüksək və orta gəlirli ölkələrdəki proqramlar ibtidai məktəbə gedən uşaqların müvafiq olaraq 78% və 58%-ni əhatə etsə də, orta səviyyədən aşağı gəlirli ölkələrdə onların əhatə dairəsi cəmi 45%-dir. Bu proqramların 73 milyon həssas uşağı əhatə etmədiyi hesabatda bildirilir ki, bu da təhsildən faydalanma qabiliyyətinə mənfi təsir göstərir.

Bu aparılan tədqiqatlarladan təxmin olunur ki, sağlam qidalanma proqramları təhsilalanların idrak qabiliyyətlərini artırmaqla orta hesabla onların məktəbə çıxışını 9% artıra və təşviq edə bilər.

SHN proqramlarının keyfiyyətinin, aktuallığının və əhatə dairəsinin yaxşılaşdırılması təhsili, eləcə də uşaqların və yeniyetmələrin həyatını və perspektivlərini müsbətə dəyişdirmək üçün unikal bir fürsətdir. Hesabatda aşağıdakı prioritet məsələlərin nəzərə alınması tövsiyə olunur:

1. Çoxsahəli yanaşmalar vasitəsilə şagirdlərin sağlam qidalanmasına və rifahına hərtərəfli diqqət etmək;
2. Şagirdlərin sağlamlığını və rifahını əsas təhsil missiyasına çevirmək;
3. SHN proqramlarını qarşıya çıxa biləcək problemlərin həllinə yönəlmiş dözümlülüyün artmasında səmərəli istifadə etmək;
4. Proqramları geniş miqyasda həyata keçirmək, müxtəlif sektorların siyasi və maliyyə öhdəlikləri ilə davamlılığını təmin etmək;
5. SHN-nin inkişafının monitorinqini aparmaq, mövcud boşluqları aradan qaldırmaq.

Mənbə: Ready to learn and thrive: School health and nutrition around the world, Paris: UNESCO, 2023.
https://unesdoc.unesco.org/ark:/48223/pf0000384421

Belnəlxalq Təhsil İcmalı
Mart 2023

# Xatırlatma mətn mesajlarının oxu bacarığına təsiri

Məqalədə sosial vəziyyəti orta və yüksək ailələrdən olan uşaqlar ilə müqayisədə az təminatlı ailələrdən olan uşaqların erkən yaş dövründən etibarən oxu bacarıqları üzrə aşağı nəticə göstərdikləri qeyd olunur. Çikaqoda valideynlərlə bu problemin aradan qaldırılması və aztəminatlı ailələrdən olan uşaqların oxu bacarıqlarını artırmaq məqsədilə tədqiqat aparılmışdır. Tədqiqatın məqsədi aztəminatlı valideynlərin mütaliəyə sərf etdiyi vaxtı müəyyənləşdirmək və uşağın oxu bacarıqlarını artırmaqdır. Tədqiqat 11 aylıq bir müddəti əhatə edir. Bu müddət ərzində aparılan araşdırmaya 379 valideyn cəlb olunub. Həmçinin, valideynlərlə birgə ən aşağı yaş göstəricisi 4 olan 300 uşaq da tədqiqatda iştirak edib. Tədqiqata cəlb olunan iştirakçılar aşağıda göstərilən 4 model qrupa bölünmüşdür.

1) yalnız fəaliyyət kitabı ilə təmin olunan valideyn nəzarət qrupu;
2) rəqəmsal kitabxana və planşetlə təmin olunan valideyn qrupu;
3) xatırlatma mətnlərini əks etdirən, rəqəmsal kitabxana və planşetlə təmin olunan valideyn qrupu (11 ay müddətində xatırlatma mesajı);
4) hədəfə yönəlmiş mətnləri olan rəqəmsal kitabxana və planşetlə təmin olunan valideyn qrupu (11 ay müddətində həftədə 4 dəfə oxu bacarıqlarının artırılmasına yönəlmiş xatırlatma mesajı).

Nəzarət qrupu istisna olmaqla digər 3 qrupda planşet, xatırlatma mətnləri və hədəfə yönəlmiş mətnlərin mütaliə vaxtına və oxu bacarıqlarına necə təsir etdiyi qiymətləndirilmişdir.
Tədqiqatdan aydın olur ki, rəqəmsal kitabxana və planşetdən istifadə edə bilən valideyn qrupları ilə müqayisədə, hədəf təyin edən xatırlatma mesajları valideynlərin mütaliə müddətini artırmışdır. Buna baxmayaraq, onların oxu bacarıqlarına heç bir təsir göstərməmişdir.

Eksperiment qruplarında iştirak edən uşaqların oxu bacarıqları CELF qiymətləndirməsi ilə ölçülmüşdür. Tədqiqatdan, yalnız planşet qrupunda və hədəfə yönəlmiş mətnlər əldə edən qrupda iştirak edən uşaqların oxu bacarıqlarının artdığı müəyyən olunmuşdur. Lakin nəzarət qrupu ilə müqayisədə xatırlatma mətnləri əldə edən qrupun şagirdləri arasında oxu bacarıqları üzrə irəliləyiş əldə olunmamışdır.
Tədqiqatdan aydın olur ki, xatırlatma mətnləri uşaqların oxu bacarıqlarına müsbət təsir etməmişdir. Xüsusilə də, mütaliə vaxtları araşdırılarkən gec saatda mütaliənin uşaqların oxu bacarıqlarına fayda vermədiyi aydın görülür.

Ümumilikdə, tədqiqatın nəticələrindən aydın olur ki, yeni təlim texnologiyaları məktəbəsaslı fəaliyyətlərin tərkib hissəsi olduqda şagirdlərin oxu (savadlılıq) bacarıqlarına əhəmiyyətli dərəcədə təsir edə bilər.



Mənbə: Kalil, Ariel and Liu, Haoxuan and Mayer, Susan and Rury, Derek and Shah, Rohen, Nudging or Nagging? Conflicting Effects of Behavioral Tools (January 4, 2023). University of Chicago, Becker Friedman Institute for Economics Working Paper No. 2023-02, Available at SSRN https://ssrn.com/abstract=4318177 or http://dx.doi.org/10.2139/ssrn.4318177

Beynəlxalq Təhsil İcmalı
Mart 2023

# Ali təhsil üzrə Beynəlxalq Konvensiya: Dünyada tələbələr üçün yeni dövr başlayır

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) məlumatında bildirilir ki, Ali təhsil haqqında Beynəlxalq Konvensiya 5 dekabr 2022-ci il tarixində 20-ci ratifikasiyadan sonra 5 mart 2023-cü il tarixindən rəsmi olaraq qəbul edilmişdir. Ali təhsillə bağlı ilk ümumdünya müqaviləsi hesab olunan "Ali təhsil üzrə Beynəlxalq Konvensiya" ölkələrin ali təhsilə çıxış və ali təhsildə mobillik imkanlarına yanaşma tərzininin dəyişilməsi istiqamətində təqdirəlayiq addımdır.

Ali təhsil üzrə Beynəlxalq Konvensiya bütün dünyada milyonlarla gəncə bütün ixtisaslar üzrə ali təhsil almaq imkanı yaradaraq, ali təhsil sferasına fayda verəcək tələbə mobilliyini və universitetlərarası əməkdaşlığı gücləndirmək üçün möhkəm struktur təmin edir. Bu konvensiya, distant təhsil və sərhədsiz ali təhsilin digər formaları kimi yeni təminat formalarının tənzimləyicilər və keyfiyyət təminatı üçün təqdim etdiyi bütün problemləri həll etməyi öhdəsinə götürür.

Konvensiya ali təhsilə çıxışı demokratikləşdirməyə kömək edərək rəqabətəqabil, müxtəlifliyə, vahidliyə, çevik öyrənmə yollarına üstünlük verəcək təhsildə yenilik və əhəmiyyətli dəyişikliyə səbəb olacaq qüvvə hesab olunur.

Məqalədə qeyd olunur ki, Ali təhsil üzrə Beynəlxalq Konvensiyanın səmərəli tətbiqi və özünü doğrultması üçün müttəfiq ölkələr konvensiyanın aşağıda qeyd olunan prinsip və öhdəliklərinə uyğun fəaliyyət həyata keçirməlidir:
-Ali təhsil sahəsində beynəlxalq əməkdaşlığı təşviq etmək və gücləndirmək;
-Ali təhsildə beynəlxalq əməkdaşlıq üçün regionlararası təşəbbüsləri, siyasətləri və innovasiyaları dəstəkləmək;
-Şəxslərə ali təhsil müəssisələrinə qəbul olunmaq üçün müraciət etmək və ya iş tapmaq üçün öz ixtisaslarının qiymətləndirilməsi hüququ vermək;
-Hər bir iştirakçı dövlətin qaydalarına və qanunlarına uyğun şəffaf, ədalətli olmaq.

Bu fəaliyyətin uğurlu həyata keçirilməsi üçün ölkələr öz ali təhsil sistemi haqqında dəqiq və şəffaf məlumat vermək üçün milli informasiya mərkəzi yaratmalıdır.

Məqalədə bildirilir ki, ali təhsil üzrə Beynəlxalq Konvensiyanın qüvvəyə minməsi yalnız başlanğıcdır. YUNESKO-nun ali təhsil üzrə beş (Afrika, Ərəb ölkələri, Asiya-Sakit Okean, Avropa, Latın Amerikası və Karib hövzəsi) regional konvensiyasının prinsiplərinin əhatəliliyini genişləndirməklə, beynəlxalq tanınmanı gücləndirəcək. Bununla da nəzərdə tutulan regionlardan kənarda tələbələrin ali təhsil imkanlarını genişləndirməklə ölkəyə fayda verəcək, rəqabəti artıracaq və keyfiyyətli ali təhsilə çıxış imkanı yaradacaq.

Konvensiya, həmçinin ali təhsil ilə bağlı çətinlikləri olan məcburi köçkünlərə (qaçqınlara) da xüsusi diqqət yetirir. Beynəlxalq Konvensiyanın qüvvəyə minməsi dünya miqyasında ali təhsil üçün transformativ hadisədir. Bu ölkələri Dayanıqlı İnkişaf Məqsədlərinin 4.3 keyfiyyətli ali təhsil üzrə hədəfinə bir addım daha yaxınlaşdırır. Eyni zamanda, Konvensiya hamı üçün daha ədalətli, əlçatan və davamlı gələcək yaratmaq üçün güclü vasitədir. Ali təhsil üzrə Beynəlxalq Konvensiya təhsil işçilərinin, siyasətçilərin, tələbələrin bir araya gələrək öyrənmək, inkişaf etmək, uğur qazanmaq imkanına sahib dünya qurmaq məqsədilə birgə fəaliyyəti üçün çağırış hesab olunur.

Mənbə: https://www.unesco.org/en/articles/global-convention-higher-education-enters-force-new-era-students-worldwide-begins